**Astrid Lindqren**

# Balaca və Karlson



Stokholm şəhərində, dünyanın ən yaxşı evində dünyanın ən yaxşı Karlsonu yaşayır. Onun dostu Balaca buna tam əmindir. Məşhur İsveç yazıçısının bu kitabdakı 3 povestini oxumaqla özünüz də buna əmin ola bilərsiniz. Karlson gonbul və qarınquludur, həmişə şəndir, fantaziyalarla doludur. Kürəyində pərləri olan bu kiçik insancığazla dostluq Balacanın həyatını tamamilə dəyişdirir.

Onun həyat kredosu: "Şən və əyləncəli olmasa, mən oynamıram".

# DAMDA YAŞAYAN KARLSON



## DAMDA YAŞAYAN KARLSON

Stokholm şəhərinin ən adi küçəsinin ən adi evində Svanteson soyadlı çox adi bir İsveç ailəsi yaşayırdı. Bu ailə ən adi atadan, ən adi anadan və onların ən adi üç uşağından – Bosse, Betan və Balacadan ibarət idi.

Balaca həmişə deyirdi:

– Mən heç də ən adi balaca deyiləm.

Ancaq bunu o, əlbəttə, düz demirdi. Axı yer üzündə o qədər yeddiyaşlı, göygöz oğlan var ki! Onların da qulaqları kirli, şalvarlarının dizi cırıq olur. Ona görə də heç şübhəniz olmasın: Balaca ən adi oğlan idi.

Bossenin on beş yaşı var. O, futbol qapısında dayanmağı məktəbdə yazı taxtası qarşısında durmaqdan çox-çox üstün tutur, deməli, o da adi oğlandır.

Betanın on dörd yaşı var. Onun da hörükləri başqa adi qızların hörüklərinə bənzəyir.

Bu evdə yalnız bircə qeyri-adi bir məxluq var ki, bu da damda yaşayan Karlsondur. Bəli, o, damda yaşayır, elə bu cəhətin özü qeyri-adidir. Bəlkə, o biri şəhərlərdə vəziyyət başqa cürdür, lakin Stokholmda kiminsə damda yaşadığını görən olmayıb. İndi təsəvvür edin ki, Karlson damda yaşayır, özü də məxsusi, xudmani bir evdə.

Karlson balacaboy, bir qədər özündənrazı, tosqun adamdır, üstəlik, hələ uça da bilir. Əlbəttə, təyyarə və helikopterlərdə

hamı uça bilər, Karlson isə təsəvvür edin ki, özü uçur. Qarnındakı düyməni basan kimi kürəyindəki məzəli mühərrik işə düşür. Mühərrik işə düşənə kimi Karlson hərəkətsiz durur, mühərrik var gücü ilə işləməyə başlayanda Karlson havaya qalxıb uçur, özü də uça-uça ehmalca yellənir. Bu vaxt o özünü elə dartır ki, elə bil direktordur, ancaq bilmirəm kürəyi propellerli direktor olur, ya yox.

Damdakı kiçicik evində Karlson çox rahat yaşayır. Axşamlar o, artırmada əyləşib tənbəki çubuğunu çəkir və ulduzları seyr edir. Damdan ulduzlar daha aydın görünür, pəncərədən heç vaxt belə gözəl mənzərə ola bilməz, ona görə də damda yaşayanların sayının azlığına ancaq təəccüb edirsən. Görünür, damda yaşamaq başqalarının ağlına gəlmir. Axı onlar Karlsonun damdakı evindən xəbərsizdirlər, axı bu ev iri bacanın dalındadır, ötəri baxanda görünmür. Bir də damdakı kiçicik ev yaşlı adamların diqqətini heç cəlb edər?! Lap bu ev ayaqlarına da ilişsə, əhəmiyyət verməz, keçib gedərlər.

Bir dəfə bir bacatəmizləyən qəflətən Karlsonun evini gördü. O, təəccüblə öz-özünə dedi:

– Qəribədir... Bu evdir belə? Ola bilməz! Damda da ev olar?.. Bu ev damda nə gəzir?

Sonra bacatəmizləyən bacaya girdi, ev də büsbütün yadından çıxdı, bir daha bu evi xatırlamadı.

Karlsonla tanış olmağına Balaca çox sevinirdi. Çünki Karlson uçub gələndə məzəli hadisələr baş verirdi. Karlson özü də, deyəsən, Balaca ilə tanışlıqdan razı idi. Hər nə deyirsən de, ancaq heç kəsin xəbəri olmayan kiçicik bir evdə tək-tənha yaşamaq o qədər də ürəkaçan iş deyil. Axı yanından uçub keçərkən "Karlson, salam!" deyəcək bir adamın yoxsa, bu ancaq sənə kədər gətirə bilər.

Onların tanışlığı uğursuz bir gündə baş verdi. Həmin gün evin sonbeşiyi olmaq Balacaya sevinc gətirməmişdi. Sonbeşik olmaq bilirsiniz necə gözəldir? Axı ailə üzvlərinin ən kiçiyini – sonbeşi-

yi ailənin bütün üzvləri sevir, hərə onu bir cür əzizləyir. Həmin gün isə hər şey əksinə oldu. Şalvarını ilişdirib cırdığı üçün anası onu danladı, Betan üstünə çığırdı ki, burnunu sil! Məktəbdən gec qayıtdığına görə atasının ona acığı tutdu və dedi:

– Küçələrdə veyillənirsən?!

"Küçələrdə veyillənirsən" demək asandır. Axı ata haradan biləydi ki, Balaca məktəbdən qayıdanda küçədə bir küçüyə rast gəlib. Bu gözəl küçük Balacanı imsiləyib, elə sevinclə quyruğunu bulayırdı ki, elə bil deyirdi: "Məni özünlə apar".

Əgər bu, Balacanın özündən asılı olsa idi, küçüyün arzusunu o dəqiqə yerinə yetirərdi. Ancaq bədbəxtlikdən, nə anası, nə də atası evdə küçük saxlamağa razılıq vermirdilər. Elə bu vaxt tindən bir qadın burulub çığırdı:

– Riki! Riki! Bura gəl! – Balaca da başa düşdü ki, bu küçük heç bir vaxt onunku ola bilməz.

Balaca incik-incik dedi:

– Görünür, mən bütün ömrümü beləcə küçük həsrətilə keçirəcəyəm. Ana, bax atam sənindir, Bosse və Betan da sənindir. Mənim isə heç kimim yoxdur, kimsəsizəm!..

Ana dedi:

– Mənim Balacam, biz elə hamımız səninik də!

– Bilmirəm... – Bu sözü Balaca çox kədərlə dedi, çünki ona birdən-birə elə gəldi ki, doğrudan da, yer üzündə heç kəsi və heç nəyi yoxdur.

Onu da deyim ki, Balacanın öz otağı var idi, oğlan otağına çəkildi.

Aydın bir yaz axşamı idi, pəncərələr açıq idi, ağ pərdələr meh dəydikcə yellənir, elə bil mavi yaz səmasına səpələnmiş solğun ulduzları salamlayırdı. Balaca pəncərəyə dirsəklənib baxmağa başladı. Bu gün rast gəldiyi o gözəl küçük yadından çıxmırdı. Bəlkə də, bu küçük indi mətbəxdə səbətin içində xumarlanırdı. Balaca yox, başqa bir oğlan isə onun yanındaca yerdə oturub tüklü başını sığallayır, deyirdi: "Riki, sən nə gözəl küçüksən!"